# AZƏRBAYCANIN İQTİSADİ SİYASƏTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Elşən Bağırzadə**
*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2014**

# İQTİSADİ SİYASƏT VƏ ƏSAS NÖVLƏRİ

- ***İqtisadi siyasət***, makroiqtisadi tarazlıqların hansı istiqamətdə və necə dəyişdiriləcəyi ilə bağlı yanaşmaların məcmusudur.
- İqtisadi siyasətin əsas növləri aşağıdakılardır:
  - ***Maliyyə siyasəti:***
    - Vergi siyasəti
    - Xərc siyasəti
    - Borc siyasəti
  - ***Monetar siyasət:***
    - Açıq bazar əməliyyatları
    - Məcburi ehtiyat normasının müəyyən edilməsi
    - Uçot dərəcəsinin dəyişdirilməsi
  - ***Məzənnə siyasəti***
  - ***Faiz siyasəti***
  - ***Xarici ticarət siyasəti***

# İQTİSADİ SİYASƏTİ HƏYATA KEÇİRƏN ƏSAS QURUMLAR

- ***İqtisadiyyat və Sənaye Nazirliyi***: Azərbaycan Respublikasının iqtisadi siyasətini, iqtisadi və sosial proqnozlarını işləyib hazırlayan, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, ölkə iqtisadiyyatında struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, rəqabətin qorunması, inkişafı və təşviqi, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, daxili ticarət, xarici iqtisadi və ticarət əlaqələri, regionların sosial-iqtisadi inkişafı və mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

- ***Mərkəzi Bank***: Dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir, nağd pul dövriyyəsini təşkil edir, pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir, manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir, valyuta tənzimini və nəzarətini həyata keçirir, sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir, hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir, bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir və ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir.

# İQTİSADİ SİYASƏTİ HƏYATA KEÇİRƏN ƏSAS QURUMLAR

- ***Maliyyə Nazirliyi***: Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən mərkəzi icra hakimiyyəti orqanıdır.

- ***Vergilər Nazirliyi***: Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

- ***Dövlət Gömrük Komitəsi***: Gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır.

# İQTİSADİ SİYASƏTİ HƏYATA KEÇİRƏN ƏSAS QURUMLAR

- ***Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi***: Qiymətli kağızlar bazarının tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların emissiyası və tədavülü, qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarı, müvafiq fəaliyyət növlərinin lisenziyalaşdırılmasının həyata keçirilməsi, lotereyaların təşkili və keçirilməsi, qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi, sağlam rəqabət mühitinin yaradılması üzrə dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.
- ***Dövlət Statistika Komitəsi***: Statistika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən və ölkədə sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət ilə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır.

# İLLƏR ÜZRƏ DÖVLƏT BÜDCƏSİNİN GƏLİR VƏ XƏRCLƏRİ




| | 1991 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Büdcə gəlirləri, mln. manat | 208.8 | 316.9 | 714.6 | 784.8 | 910.2 | 1221 | 1510 | 2055 | 3869 | 6007 | 10763 | 10326 | 11403 | 15701 | 17282 | 19496 | 18384 |
| Büdcə xərcləri, mln. manat | 192.8 | 428.4 | 764 | 807.5 | 931.8 | 1235 | 1502 | 2141 | 3790 | 6086 | 10774 | 10504 | 11766 | 15398 | 17417 | 19144 | 20063 |

# DÖVLƏT BÜDCƏSİNİN GƏLİR VƏ XƏRCLƏRİNİN TƏRKİBİ (2014)

| **Gəlirlər**<br>***18 384 000,0 min manat*** | | **Xərclər**<br>***20 063 000,0 min manat*** | |
|---|---|---|---|
| 1. Vergilər | 41,8% | 1. Ümumi dövlət xidmətləri | 10% |
| 2. Gömrük rüsumları | 1,8% | 2. Müdafiə | 8,2% |
| 3. Dövlət Neft Fondundan daxilolmalar | 50,8% | 3. Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokrorluq | 6,2% |
| 4. Digər daxilolmalar | 5,6% | 4. Təhsil | 8,2% |
| | | 5. Səhiyyə | 3,6% |
| | | 6. Sosial müdafiə və sosial təminat | 10,3% |
| | | 7. Mədəniyyət, incəsənət, onformasiya, bədən tərbiyəsi və digər sahədə fəaliyyət | 1,6% |
| | | 8. Mənzil və kommunal təsərrüfatı | 2,3% |
| | | 9. Yanacaq və enerji | 0,02% |
| | | 10. Kənd təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 2,8% |
| | | 11. Sənaye, tikinti və faydalı qazıntılar | 31,3% |
| | | 12. Nəqliyyat və rabitə | 0,6% |
| | | 13. İqtisadi fəaliyyət | 1,6% |
| | | 14. Əsas bölmələrə aid edilməyən xidmətlər | 13,3% |

# DÖVLƏT BÜDCƏSİ KƏSİRİ VƏ MALİYYƏLƏŞMƏSİ

- 2014-cü ildə ***dövlət büdcəsi kəsirinin yuxarı həddi 1 679 000,0 min manat*** məbləğində təsdiq edilmişdir.
- ***Kəsrin maliyyələşdirilməsinin aşağıdakı mənbələr*** hesabına həyata keçirilməsi nəzərdə tutulmuşdur:
  – Özəlləşdirmə;
  – Daxili və xarici borcalanma;
  – Xarici qrantlar;
  – Keçən ilin dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı.

# DÖVLƏT BÜDCƏSİNDƏ VERGİ GƏLİRLƏRİNİN TƏRKİBİ (2014)

| No. | Vergi gəlirləri | 7 678 000 000 | 100% |
|---|---|---|---|
| 1 | Fiziki şəslərin gəlir vergisi | 882 000 000 | 11,5% |
| 2 | Hüquqi şəxslərin mənfəət vergisi | 2 217 000 000 | 28,9% |
| 3 | Hüquqi şəxslərin torpaq vergisi | 48 000 000 | 0,6% |
| 4 | Hüquqi şəxslərin əmlak vergisi | 132 000 000 | 1,7% |
| 5 | Əlavə dəyər vergisi | 3 209 000 000 | 41,8% |
| 6 | Sadələşdirilmiş vergi | 130 000 000 | 1,7% |
| 7 | Aksiz vergisi | 874 500 000 | 11,4% |
| 8 | Yol vergisi | 69 500 000 | 0,9% |
| 9 | Mədən vergisi | 116 000 000 | 1,5% |

# XARİCİ DÖVLƏT BORCU

- 01 oktyabr 2014-cü il tarixinə Azərbaycanın ***xarici dövlət borcu 6,380.7 milyon ABŞ dolları*** (5,005.1 milyon manat), ***xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 8.5 faiz*** təşkil etmişdir.
- Borc vəsaitlərinin 7.4%-i 10 ilə qədər, 61.3%-i 10 ildən 20 ilə qədər, 31.3%-i isə 20 ildən artıq olan müddətə cəlb olunmuşdur.
- Əsasən ***Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər*** iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə sərf edilmişdir.

# MƏRKƏZİ BANKIN HƏYATA KEÇİRDİYİ SİYASƏT

- Hazırda Mərkəzi Bankın həyata keçirdiyi siyasətin əsas hədəfləri aşağıdakılardır:
  - Makroiqtisadi və maliyyə sabitliyi;
  - Aşağı inflyasiya;
  - Sabit məzənnə;
  - Aşağı faiz dərəcələri;
  - Bank-maliyyə sektorunda dayanıqlıq;
  - Maliyyə vasitəçiliyinin inkişafı.

# MƏRKƏZİ BANKIN HƏYATA KEÇİRDİYİ SİYASƏT

- Mərkəzi Bankın istifadə etdiyi əsas siyasət alətləri aşağıdakılardır:
  - Açıq bazar əməliyyatları;
  - Məcburi ehtiyat normasının müəyyən edilməsi (hazırda 2%-dir);
  - Uçot dərəcəsinin dəyişdirilməsi (hazırda 3,5%-dir);
  - Valyuta intervensiyası.

# MƏRKƏZİ BANKIN HƏYATA KEÇİRDİYİ SİYASƏT

- Mərkəzi Bankın xüsusi lisenziyası olmadığı halda, ölkədə ***bütün ödəmələr manatla*** həyata keçirilir.
- Əmtəələrin və xidmətlərin Azərbaycana idxalı ilə bağlı rezidentlər və qeyri-rezidentlər tərəfindən ***xaricə göndərilən avanslara dair pul məhdudiyyətləri*** Mərkəzi Bank tərəfindən ləğv olunmuşdur. Məhdudiyyətlərin ləğv olunmasına baxmayaraq, avans ödənişləri veriləndən sonra əmtəələr Azərbaycana ***180 gün ərzində*** çatdırılmalıdır.
- Ölkə rezidenlərinin nağd valyuta sərvətlərini gömrük orqanlarına bəyan etməklə məhdudiyyət qoyulmadan Azərbaycana gətirmələrinə, ***adambaşına 10 min ABŞ dolları*** ekvivalenti məbləğində valyuta sərvətini sənəd təqdim edilmədən gömrük orqanlarına bəyan etməklə Azərbaycandan çıxarmalarına icazə verilmişdir.
- Əvvəllər ölkəyə nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən ***50 min ABŞ dolları*** ekvivalentinədək məbləği gömrük orqanlarına bəyan etməklə, ***50 min ABŞ dollarından artıq məbləği*** isə valyuta gətirilən ölkənin bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitlərin həmin rezidentə nağd verilməsini təsdiq edən arayışı təqdim etməklə müvəkkil banklar vasitəsilə ölkədən çıxarmalarına icazə verilmişdir.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- Azərbaycana idxal olunan əmtəələrə ***bir neçə gömrük rejimi*** tətbiq edir. Bunlardan vacib olanları aşağıdakılardır:
  - tranzit, gömrük saxlanılması, gömrük anbarı, müvəqqəti idxal, gömrük zonalarına giriş və çıxış.
- Azərbaycana idxal olunan əmtəələrdən rüsum tutulur (advalor rüsumu ***– 0-15% -*** ədəd və ölçü rüsumuna uyğundur).
- ***Aksiz vergisi*** bəzi növ idxal olunan əmtəələrə tətbiq olunur (tütün və alkoqol məmulatları).

# XARİCİ TİCARƏT SİYASƏTİ

- Azərbaycan ***məqsədli ƏDV prinsipini*** qəbul edib (hazırda 18%) ki, bu da hər hansı əmtəənin gömrük dəyərindən tutulur (tətbiq olunan gömrük rejimindən asılı olaraq, idxal rüsumu və həmçinin aksiz vergisi).
- Bəzi kateqoriyalara və əmtəə növlərinə ***ƏDV tətbiq olunmur və ya 0% dərəcəsi*** ilə tətbiq olunur.
- İxrac olunan bütün məhsullar (metal ixracından başqa) ***gömrük rüsumlarından azad edilmişdir.***

# XARİCİ TİCARƏT SİYASƏTİ

- Hasilatın Pay Bölgüsü haqqında Sazişlərdə (HPBS) və boru kəməri layihələri üzrə sazişlər çərçivəsində fəaliyyət göstərən podratçılar, onların agentləri və subpodratçılar ***idxal rüsumunu ödəmədən və məhdudiyyətsiz*** neft-qaz sənayesi təyinatlı əmtəələri Azərbaycana idxal və yenidən-ixrac edə bilərlər.
- HPBS rejimli idxala ***0% ƏDV*** tətbiq olunur. Eyni zamanda "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Qanuna əsasən, neft-qaz sahəsində podratçıların və subpodratçıların ixrac məqsədli fəaliyyətinə ***0% dərəcəsi ilə ƏDV*** tətbiq olunur.

# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR


- Aras O. N., Süleymanov E. (2010), “Azərbaycan iqtisadiyyatı”, Bakı: Şərq-Qərb. http://ebooks.azlibnet.az/book-qUreBt0n.html
- Azərbaycanın statistik göstəriciləri. http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
- Bağırzade E. (2011), “Bağımsızlığının XX. Yılında Azerbaycan Cumhuriyeti Ekonomisi”, Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Dergisi, Güz (15), s. 277-312. http://elsenbagirzade.files.wordpress.com/2011/03/bagimsizliginin-20-yilinda.pdf
- “AR-nin 2014-cü il dövlət büdcəsi haqqında”, http://www.maliyye.gov.az/sites/default/files/qanun-2014-cu-il-budca-rasmi-sanadlar-an-yeni-variantda.pdf
- www.cbar.az - Mərkəzi Bank
- www.economy.gov.az – İqtisadiyyat və Sənaye Nazirliyi
- www.customs.gov.az – Dövlət Gömrük Komitəsi
- www.taxes.gov.az – Vergilər Nazirliyi